# AZƏRBAYCAN RESPUBLİKASI
# NAXÇIVAN MUXTAR RESPUBLİKASI
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Çıxarış**

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Alternativ enerji mənbəyi kimi günəş enerjisindən elektrik enerjisi alınması üçün Naxçıvan Muxtar Respublikasına idxal olunan avadanlıqların gömrük idxal rüsumundan və əlavə dəyər vergisindən azad olunması haqqında" 2010-cu il 13 aprel tarixli 43 nömrəli, "Gömrük nəzarətindən keçməli olan malların yoxlanılmasının sürətləndirilməsi, gömrük nəzarətinin səmərəliliyinin artırılması və həyata keçirilmə müddətinin azaldılması məqsədi ilə gömrük orqanları tərəfindən istifadə olunan texniki vasitələrin siyahısı və onlardan istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında" 2012-ci il 4 sentyabr tarixli 75 nömrəli, "Gömrük brokerlərinin dövlət reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2012-ci il 31 oktyabr tarixli 89 nömrəli, "Dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin gömrük hərraclarında satılması Qaydaları"nın təsdiq edilməsi barədə" 2012-ci il 1 noyabr tarixli 90 nömrəli, "Təbii fəlakətlər və digər fövqəladə hallar zamanı zəruri olan malların və nəqliyyat vasitələrinin, canlı heyvanların, tez xarab olan malların, radioaktiv maddələrin, kütləvi informasiya məqsədləri üçün materialların, Naxçıvan Muxtar Respublikasının qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin ünvanlarına göndərilən və bu**

**qəbildən olan başqa malların gömrük rəsmiləşdirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"nın təsdiq edilməsi haqqında" 2012-ci il 27 dekabr tarixli 111 nömrəli qərarlarının ləğv edilməsi barədə**

"Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamənin və komitənin strukturunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 noyabr tarixli 1891 nömrəli Fərmanına və "Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin bəzi fərman və sərəncamlarında dəyişiklik edilməsi və bəzi fərman və sərəncamlarının ləğv edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 31 yanvar tarixli 148-VI FR nömrəli Fərmanının 3-cü hissəsinə əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Gömrük brokerlərinin dövlət reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2012-ci il 31 oktyabr tarixli 89 nömrəli, "Dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin gömrük hərraclarında satılması Qaydaları"nın təsdiq edilməsi barədə" 2012-ci il 1 noyabr tarixli 90 nömrəli qərarları ləğv edilsin.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, "1" fevral 2023-cü il

№ 32